## İki Şiir

◆ **Ədalət Duman**

**Gülüş**
gülüş gülə xoş yaraşır
gülüm gülə gülə danış!
qoy yayılsın nəfəsinlə.
ətir güldən gülə danış

mən qəlbinə güllə dolan
sənsə qoynu güllə dolan
güllə gəzib güllə dolan
güldən öyrən gülə danış!

hey sən deyb qara baxdım
döndü buza qara baxtım.
bircə dəfəh qara baxtım.
bəlkə üzə gölə danış

**Toyda gördüm**
Nəşələndim gözlərindən
Dünən gecə toyda gördüm
Dünyanın hər gözəlliyin
O qamətdə, boyda gördüm,

Çatam eşqin tərzində mən
Onun həddi mərzində mən
Bir saatın ərzində mən
Qış da gördüm, yay da gördüm,

Görsənirdi su boğazda,
Tam şirinlik dil ağızda,
Yazılmamış ağ kağızda,
Söy də gördüm boy da gördüm,

Gözüm qaldı cüt zalında
Özüm dalğın xəyalında,
Onun parlaq camalında,
Gün də gördüm, ay da gördüm,

Qurbanam yazı yazana,
Husnündən bülbül yaz ana
Duman kimi bir ozana,
Yetməz ondan fayda gördüm

## Gözlerin Dünyaya Savaş Açıyor

◆ **Murat Serdar Çakıroğlu**

*Eymen Sadık Durak'a*

Gökyüzünün mavi duvağı yırtık
Kanserli bülbüller gülden kaçıyor
Şeytanla sulh olmuş ruhlara inat
Gözlerin dünyaya savaş açıyor

Uçuyor yurduna zübde-i âlem
Günahtan azade dünyadan mahzun
Boynumuzda kaldı küskün vebalin
Artık bahçemizde zakkum açıyor

Kalbim taşa kesti yâdında çocuk
Kestikçe d/okunan bir yaralı taş
Bu cinnet mahali bu kanlı savaş
İblise kâm, suya alev taşıyor